## İdman xəbərləri

# Qəbələdə uşu üzrə respublika turniri keçirilir

Qəbələ Olimpiya İdman Kompleksində 20 Yanvar Şəhidlərinin xatirəsinə həsr edilmiş uşu idman növü üzrə yeniyetmələr və gənclər arasında respublika turnirinə start verilib.

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Uşu Federasiyasının birgə təşəbbüsü ilə keçirilən yarışda Bakı, Gəncə, Göyçay, Mingəçevir, Şəki və Ağcabədi klublarından 200-ə yaxın idmançı iştirak edir.

Bu yarışlar martda keçiriləcək uşu üzrə Azərbaycan çempionatına hazırlıq xarakteri daşıyır.

# Beynəlxalq turnirdə fərqləniblər

“Qəbələ” İdman Klubunun taekvondoçuları Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq turnirdə fərqləniblər. Komandamızın üzvləri Cavad Ağayev və Məhəmməd Məmmədov ənənəvi “Turkish open” turnirində bir qızıl və bir bürünc medala yiyələniblər. 68 kq çəki dərəcəsində çıxış edən Cavad Ağayev bütün rəqiblərinə qalib gələrək yarışın çempionu adını qazanıb. Məhəmməd Məmmədov isə 3-cü yerin sahibi kimi fəxri kürsüyə qalxıb.

## Faydalı bitkilər

# Qara çay haqqında bilmədiklərimiz

Mütəxəssislər uzun illərdir ki, qara çayın faydalı xüsusiyyətlərini öyrənirlər. Tədqiqatlar göstərir ki, gündə 1 stəkan çay içənlərin immun sistemi daha güclü olur.

Qara çay xüsusilə mövsümü soyuqdəymələr zamanı daha çox faydalıdır. Ağır və yağlı yeməklərdən 1 saat sonra qəbul olunması həzm prosesini asanlaşdırır. Ona rəng verən birləşmələr damar çəpərlərini gücləndirir, beyin də daxil olmaqla bütün orqanlarda hər cür qanaxma riskini azaldır. Çay içilməsi qan dövranını yaxşılaşdırır, diş minasını möhkəmləndirir, bədəni zərərli maddələrdən təmizləyərək böyrəklərin daha yaxşı işləməsini təmin edir.

Qara çay B2, C və E vitaminləri, maqnezium, kalium, sink və kofein ehtiva etdiyi üçün dəriağardıcı təsirə malikdir. O, qanda xolesterinin səviyyəsini aşağı salır. Bu ətirli içkini qəbul etmək ürək-damar xəstəliklərinə profilaktiki təsir göstərir. Belə ki, çayda olan faydalı maddələr damarları təmizləyir və elastikliyi artırır.



Artıq və vaxtsız içilən çay orqanizmə mənfi təsir göstərir, çünki onun tərkibindəki bəzi maddələr qidadan alınan dəmirin miqdarını azaldır. Çaydan ifrat istifadə əsəb pozğunluğu, yüksək təzyiq, əl titrəməsi, baş ağrısı və yuxusuzluq kimi hallara səbəb ola, revmatizmdən əziyyət çəkənlərin isə səhhətində problem yarada bilər.

Çay, eyni zamanda, pəhriz üçün də yaxşı vasitədir, çünki kalorisizdir. Onun vasitəsilə maddələr mübadiləsini yaxşılaşdırmaq olar. İçərisinə faydalı bitkilər əlavə edilməklə çay içilməsi artıq kalori və çəkidən azad olmağa kömək edir. Lakin həddindən artıq şəkərli çay içmək isə ürək-damar, köklük kimi xəstəliklərə səbəb olur.

Ümumiyyətlə, gün ərzində dörd fincandan artıq və tünd çay içməkdən çəkinmək lazımdır. Orqanizmin ehtiyac duyduğu mayeni isə su ilə ödəmək məsləhətdir.

# Süni intellektə əsaslanan təhlükəsizlik sistemi

ABŞ məktəblərində süni intellektə əsaslanan təhlükəsizlik sistemi tətbiq edilib.

Bu sistem həm dərs, həm də fasilələr zamanı hər bir tələbənin fəaliyyətini izləmək imkanına malikdir. Müşahidə kameraları süni intellektə əsaslanan sistemlə təchiz edilib. Sistem bütün şagirdlərin və müəllimlərin hərəkətlərini izləyən, xarici əlamətlərlə fərqləndirən məlumat bazası ilə əməliyyatlar edir. Bu əlamətlərə yaş, cins, geyim və üz xüsusiyyətləri daxildir.

Qeyd olunan məlumatlara əsaslanan sistem müəyyən şəxsin məktəbin hansı hissəsində olduğunu müəyyənləşdirir. Buna əsasən, məktəb rəhbərliyi şagirdlərin davranışlarını tənzimləyir.

Sistem həm də avtomatik olaraq məktəbdə olması zəruri olmayan şəxsləri aşkar edir.

# Laborant-robotlar hazırlanıb

Elmi tədqiqatlarla məşğul olmaq, laboratoriyalarda bir eksperimenti min dəfə təkrar etmək məşəqqətli iş sayılır. İndi bu işləri robotlara həvalə ediblər. Bu cür eksperimentlərdən biri də gəmilərin layihələşdirilməsi zamanı nəzərə alınan burağan silkələmələrinin tənzimlənməsidir.

Bu mürəkkəb və ağır laboratoriya tədqiqatlarını aparmaq üçün alimlər tərəfindən süni intellekt bazasında “Intelligent Tow Tank” (ITT) adlı robotlaşdırılmış eksperimental platforma işlənib hazırlanıb.



“Laborant-robotun” hazırlanması üzrə ən çətin iş onun diqqətinin axınlara yönəldiləcəyi və müsbət nəticələrin əldə olunacağı təkrar eksperimentlərin aparılmasıdır.

Bu cür robotdan istifadə edilməsi elmin tətbiqi sahələrində potensial inkişaf perspektivləri yaradır, kompüterlər və insanların birgə fəaliyyəti isə tədqiqatların eksperimental fazasını sürətləndirməyə imkan verir.

# İşsiz, işaxtaran və işəgötürənlərin nəzərinə!

Qəbələ Rayon Məşğulluq Mərkəzi 27 fevral 2020-ci il tarixdə Əmək Yarmarkası keçirilir.

Sizi Əmək Yarmarkasına dəvət edirik.

Yarmarka saat $11^{00}$-da başlanılır.

Yarmarka Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində (Qəbələ şəhəri 28 may küçəsi 34 ünvanında) keçiriləcəkdir.

**Qəbələ Rayon Məşğulluq Mərkəzi**

# “Qəbələ Müalicə Diaqnostika Mərkəzi” publik hüquqi şəxsin mühafizə xidməti işlərinin yerinə yetirilməsi üzrə büdcə vəsait hesabına keçiriləcək elektron tenderdə iştirak etmək üçün açıq tenderə dəvət edir

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov-.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini təqdim edə bilərlər.

**.İştirak haqqı- 200.0 (iki yüz)manat**

**TƏŞKİLAT: “Qəbələ Müalicə Diaqnostika Mərkəzi” publik hüquqi şəxs**

**BANKIN ADI: Azərbaycan Beynəlxalq Bankı Qəbələ Filialı KOD: 805818 VÖEN: 9900001881 MÜXBİR HESABI: AZ03NABZ01350100000000002944**

**SWİFT BİK: İBAZAZ2X H/HESABI (İBAN): AZ95İBAZ38060019446238549323 VÖEN: 4400563531**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

**1. Tenderdə iştiraketmək üçün yazılı müraciət;**

**2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;**

**3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);**

**4. Tender təklifi dəyərinin 1 % -i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);**

**5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;**

**6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;**

**7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;(vacib deyil)**

**8. İddiaçının tam adı,hüquqi statusu, nizamnaməsi,qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;**

**9. İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;**

**10. Digər sənədlər:**

Tender proseduru «Dövlət satınalmaları haqqında» qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 3 mart 2020-ci il saat $15^{00}$-dək PORTAL vasitəsilə təqdim etməlidirlər.

# İtmişdir

Azərbaycan DİN DYP İdarəsi tərəfindən **Rzayev Xudaqulu Ələt oğluna** məxsus 1982-ci ildə istehsal olunan «Ural 4320» markalı yük avtomobilinə 1 avqust 1996-cı il tarixdə verilmiş **10 VW 128 dövlət nömrə nişanları** itdiyi üçün onu tapanlardan həmin nömrə nişanlarını Qəbələ Rayon Polis Şöbəsinə təhvil verilməsi xahiş edilir.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Mirzəbəylə kənd sakini **Xəlilova Ruhəngiz Telman qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 157 nömrəli (kod 40613018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini İsmayılov **Aqşin Nuru oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 157 nömrəli (kod 40614018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Bum qəsəbə (əvvəlki kənd) sakini **Bayramov Bəhruz İsgəndər oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 947 A nömrəli (kod 40800038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsfız sayılır.

---

«Qabala Qroup» MMC-yə məxsus **dairəvi möhür** itdiyinə görə həmin möhürü tapanlardan onu Qəbələ Rayon Polis Şöbəsinə təhvil vermələri xahiş olunur.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Tikanlı kənd sakini **Abdullayev Qnyaz Pirqulu oğluna** verilmiş JN seriyalı 0021 nömrəli (kod 40615018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Bum qəsəbə (əvvəlki kənd) sakini **Qasımov Kamran Niyazı oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 199 G nömrəli (kod 40600038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzeti redaksiyasının kollektivi iş yoldaşları **Rais Rəşidova, Nahidə Əbdürəhimovaya və Səfa Aslanova** qohumları

**TAPDIQ ƏHMƏDOVUN**

vəfatı münasibəti ilə dərin hüznlə başsağlığı verir

«Qəbələ» qəzeti redaksiyasının kollektivi iş yoldaşları **Nahidə Əbdürəhimovaya** xalası

**ZEYNƏB XANIMIN**

vəfatı ilə əlahədar dərin hüznlə başsağlığı verir.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Son dəqiqə» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1159*